“Təsdiq edirəm”
ADNSU-nun rektoru
professor M. Babanlı
“ 30 ” 09 2015-ci il
Pr.№ 02.

**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin**

**“Beynəlxalq əməkdaşlıq” şöbəsinin**

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1 “Beynəlxalq əməkdaşlıq” şöbəsi (bundan sonra – şöbə) Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) struktur bölməsidir.

1.2 Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Təhsil haqqında Qanununu, Elm və Təhsil nazirliyinin sərəncamlarını, qərarlarını, əsasnamələrini, ADNSU-nun Nizamnaməsini, bu Əsasnaməni, rektorun əmrlərini və digər normativ-hüquqi aktlarını əsas götürür.

1.3 Şöbənin strukturu və ştat vahidi işin həcmi və qarşısında duran vəzifələri nəzərə alaraq rektor tərəfindən təsdiq olunur.

1.4 Şöbəyə rəhbərlik Beynəlxalq əlaqələr üzrə prorektora bilavasitə tabe olan şöbə müdiri tərəfindən həyata keçirilir.

## 2. Məqsəd və vəzifələr

2.1 Şöbə beynəlxalq əməkdaşlığın bütün formalarının təşkilini və koordinasiyasını yerinə yetirir, ADNSU-nun beynəlxalq təhsil məkanına inteqrasiyası üçün işlər aparır.

2.2 Məqsədə nail olmaq üçün şöbə aşağıdakıları həyata keçirir:

2.2.1 Xarici ölkələrin ali məktəbləri, beynəlxalq təhsil və elm mərkəzləri, sənaye müəssisələri, şirkətləri, fondları və s. ilə tərəfdaşlıq və qarşılıqlı fayda əsasında əlaqələrin yaradılması.

2.2.2 Mövcud beynəlxalq əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi, onların səmərəliyinin artırılması; ikitərəfli və çoxtərəfli əməkdaşlıq əsasında ikili dərəcə və diplomların əldə edilməsinə xidmət edən birgə proqramların təsis edilməsi; həmin proqramlar çərçivəsində müəyyən ixtisaslar üzrə xarici universitetlərin tədris planları və fənlərinin

mənimsənilməsi; ikili diplom proqramları çərçivəsində müqavilələrin imzalanması.

2.2.3 ADNSU ilə xarici təşkilatlar arasında razılaşmaların, müqavilələrin, əlaqələrin və digər sənədlərin hazırlanması, beynəlxalq yazışmaların təşkili və aparılması.

2.2.4 Bağlanmış sazişlərin həyata keçirilməsində fakültələrdə, kafedralarda və şöbələrdə birgə fəaliyyətin təşkili; xarici dildə tədris olunan proqram və kursların sayının artırılması, xarici dilin təşviqi üçün beynəlxalq standartlara uyğun imtahanların təşkili (IELTS, APTIS).

2.2.5 Beynəlxalq tədbirlərin (konfranslar, konqreslər, simpoziumlar, forumlar, dəyirmi masalar, görüşlər və s.) təşkilində iştirakı, ADNSU əməkdaşlarının həmin toplantılarda təmsil edilməsi üçün gərəkli işlərin görülməsi.

2.2.6 Tələbə, doktorant və professor-müəllim heyətini müxtəlif təşkilatların və fondların proqramları, keçiriləcək beynəlxalq tədbirlər haqqında məlumatlandırılması.

2.2.7 Tələbə, doktorant, staj keçənlər və müəllimlərin mübadiləsi yolu ilə akademik mobilliyinin inkişafı.

2.2.8 Xarici ölkələrdən ADNSU-ya gələn tələbə, doktorant, staj keçənlər və müəllimlər üçün iş şəraitinin yaradılması; əcnəbi tələbələrin, professor-müəllim heyətinin sayının artırılması, əcnəbi tələbələrə akademik, karyera, tədqiqat, kitabxana, sosial-mədəni, sağlamlıq və digər sahələrində dəstəyin artırılması.

2.2.9 Tələbə, doktorant və professor-müəllim heyətinin beynəlxalq fondların, əməkdaşlıq və mübadilə proqramlarının nümayəndələri ilə görüşlərinin təşkili.

2.2.10 Tələbə və əməkdaşların xarici ölkələrə ezamiyyələrinin təşkili və sənədlərin hazırlanması.

2.2.11 ADNSU-nun xarici ölkələrdə müvəqqəti işə gedən əməkdaşları ilə mövcud qaydalar əsasında müqavilələrin bağlanmasının təşkili və müqavilə şərtlərinin yerinə yetirilməsinə nəzarət.

2.2.12 Rektorluqda keçirilən beynəlxalq protokola uyğun tədbirlərin təşkili və qeydi.

2.2.13 ADNSU-nun rəsmi saytında ingilis dilində zəruri məlumatın verilməsi.

## 3. Hüquqlar

3.1 Şöbənin əməkdaşları aşağıdakı hüquqlara malikdir:

3.1.1 Şöbənin səlahiyyətinə aid olan məsələlər üzrə zəruri məlumatların ADNSU-nun digər şöbələrindən tələb edilməsi.

3.1.2 Şöbənin səlahiyyətlərinə aid məsələlər üzrə ADNSU-nun digər əməkdaşlarının iştirakı ilə iclas və seminarların keçirilməsi.